# Gəncənin yaddaş kitabı – Cavadxan küçəsi






**Hər şəhərin öz yaddaşı, hər küçənin öz hekayəsi var. Gəncənin qəlbində elə bir küçə uzanır ki, onun hər addımı tarixlə danışır, hər daşı bir xatirədir. Bu, Gəncənin "şah damarı" adlanan Cavadxan küçəsidir. Adını yalnız bir qəhrəmandan deyil, bütöv bir xalqın iradəsindən, mübarizəsindən alan bu küçə həm Gəncənin, həm də Azərbaycanın qürur yoludur.**

Küçə öz ünvanını 1804-cü ildə rus imperiyasına qarşı qəhrəmancasına döyüşərək şəhid olan sonuncu Gəncə xanı Cavad xanın adından alıb. Bu ad sadəcə bir lövhəyə yazılmayıb – gəncəlilərin yaddaşına, ruhuna həkk olunub. Sovet dövründə küçəyə Sabir küçəsi desələr də, xalq hafizəsi onu heç vaxt başqa cür qəbul etməyib. Çünki tarix rəsmi qərarlarla yox, yaddaşla yazılır.

Cavadxan küçəsinin memarlıq siması da tamam bambaşqadır. Burada qırmızı kərpicdən hörülmüş ikimərtəbəli binalar sıralanır. O evlərin birinci mərtəbəsində mağazalar, dükanlar açılır, üst qatlarda isə ailələrin səsi, uşaq qəhqəhəsi eşidilir. Dalana açılan darvazalardan qədim həyətlərin qoxusu, kərpiclərin sərinliyi yayılır. Bir vaxtlar küçədə Quberniya Bankı, Pitoyev bankir evi, Usubbəyovun kredit bankı kimi nüfuzlu binalar yerləşib. XIX əsrin sonlarında bank kimi tikilən o möhtəşəm tikililər bu gün də öz funksiyasını qoruyur.

Bu küçədə sadəcə banklar, idarələr yox, həm də sənətkarlıq və yaradıcılıq nəfəsi olub. "Rəfiyev qardaşlarının" ticarət evi, Babayev qardaşlarının mağazası, Rudnikin kauçuk dükanı, Hacı Həsənovun mətbəəsi, Zinger qardaşlarının emalatxanası, "Zarya" sinematoqrafı – hamısı Gəncənin canlı iqtisadi və mədəni həyatının şahidləri olub. Burada xalçaçılıq və rəssamlıq dərnəkləri fəaliyyət göstərib, sənətkarların əl izləri sanki küçənin daşlarına hopub.

Cavadxan küçəsinin başqa bir yaddaşı da milli mübarizə ilə bağlıdır. Burada Şeyxzamanovlar nəslinin evi, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından Xasməmmədov qardaşlarının yaşadığı bina və ilk "Azərbaycan" qəzetinin işıq üzü gördüyü mətbəə yerləşib. Adama elə gəlir ki, istiqlal nəfəsi duyulan bu küçə, sanki milli oyanışın səssiz salnaməsidir.

Bəziləri Cavadxan küçəsini Bakının Nizami, yəni "Torqovı"sına bənzədir. Amma bu tarixi küçə düz və səliqəli paytaxt küçəsi deyil, dönə-dönə irəliləyən, gah qədim məhəllələrə, gah da müasir şəhərə açılan bir yoldur. Sanki onun döngələri Gəncənin tarix boyu yaşadığı dönüşləri əks etdirir.

Bugünkü Cavadxan küçəsi həm keçmişi, həm də gələcəyi daşıyır. Küçə boyu aparılan abadlıq işləri, bərpa olunan tarixi binalar, açılan yeni mədəniyyət və ticarət ocaqları bu yeri daha da canlı edir. Burada məktəbə tələsən uşaq da, skamyada oturan qoca da, əl-ələ tutub gəzən gənclər də bir tarixlə üz-üzədir.

Cavadxan küçəsi – sadəcə yol deyil, bir millətin dirəniş və qürur tarixidir. Onun daşlarında Cavad xanın ruhu dolaşır, hər addımda qəhrəmanlıq və ləyaqət xatırlanır. Gəncə onu yaşadır. Və hər kəs bu küçədən keçərkən, sanki tarixlə salamlaşır.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

